**Vaqif Nəsib**
**<u>SARIHÜSEYNOĞLU</u>**

## *Böyük ürək və qələm sahibi Elçinə*

*Hər məbədi öz yerində,*
*Buta,*
*Naxış,*
*Söz yerində,*
*Ürəyinin köz yerində,*
*Bir Elçin qayğısı yaşar, -*
*Haraylara haray qatar.*

*Vaqifdən üz dönən zaman,*
*Unudanda son anları.*
*Öləziyib sönən zaman*
*Yolunun qoca fanarı*
*Qayəsində əzm tutar,*
*Elçin həm əl,*
*işıq tutar.*

*Nə yaxşı ki,*
*daim yatar*
*xeyirxahlıq bərəsinə*
*Qayğısıyla fişəng atar*
*İncik incə dərəsinə.*
*Zəmanənin təklədiyi,*
*Neçə zərbə həklədiyi*
*Astanbəyli dərvişinə, -*
*Hacı Məhəmmədə çatar.*

*8 oktyabr 2011*

**Ədəbiyyat qəzeti.- 2023- cü il.- 20 may.- S. 30.**